# Qəbələdə Azərbaycan Coğrafiya Cəmiyyətinin X qurultayı keçiriləcək

AMEA-nın akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunun dəstəyi ilə mayın 25-26-da Qəbələ rayonunun Çuxur Qəbələ kəndindəki Arxeoloji Mərkəzdə Azərbaycan Coğrafiya Cəmiyyətinin X qurultayı keçiriləcək.

Qurultayda cəmiyyətin prezidenti, akademik Ramiz Məmmədov “Azərbaycan Coğrafiya Cəmiyyəti 80 ildə” mövzusunda məruzə edəcək.

Qurultayda həmçinin qlobal iqlim dəyişmələri, Xəzər dənizinin tədqiqinin müasir vəziyyəti, coğrafiyaçı kadrlar hazırlamağın perspektivləri, ətraf mühitin mühafizəsi, tibbi və fiziki coğrafiya, ACC-nin beynəlxalq əlaqələri və s. məsələlər müzakirə olunacaq.

**“Qəbələ”**

# Eramızdan əvvələ aid gəmi aşkarlanıb

Xorvatiya sahillərində Molat adasının yaxınlığında eramızdan əvvəl I əsrə aid gəmi aşkar olunub.



Arxeoloqların fikrincə belə gəmilərdən Adriatik dənizi sahillərində Qədim Roma varlılarının villaların tikintisi zamanı inşaat materiallarının daşınması üçün istifadə olunurmuş.

# Şərqin ilk demokratik dövləti - Azərbaycan Xalq Cümhuriyyəti

Müsəlman Şərqində ilk dünyəvi demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından 101 il ötür.

Xatırladaq ki, ölkəmizdə 28 may Cümhuriyyət Günü 1990-cı ildən dövlət bayramı kimi qeyd edilir.

1917-ci ildə Rusiyada baş vermiş Fevral inqilabı nəticəsində çar imperiyası devrildi və ölkədə çarizmin məzlum vəziyyətə saldığı xalqların milli-azadlıq hərəkatı gücləndi. Azərbaycanın mübariz oğullarının gərgin fəaliyyəti nəticəsində 1918-ci ilin may ayının 28-də dünyəvi demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyəti yaradıldı. Bu xalqımızın tarixi yaddaşında Azərbaycanda demokratik, dünyəvi dövlətçiliyin ilk təcrübəsi kimi iz qoyub.

Məhəmməd Əmin Rəsulzadə və onun digər milli azadlıq uğrunda mübarizə yoldaşları tərəfindən əsası qoyulan Azərbaycan Xalq Cümhuriyyəti türk və islam dünyasında ilk parlamentli cümhuriyyət və ilk demokratik, hüquqi və dünyəvi dövlət nümunəsi idi.

Azərbaycan müvəqqəti hökumətinin ilk başçısı Fətəli Xan Xoyski seçilib. Milli Şura 10 gün Tiflisdə işlədikdən sonra Gəncəyə köçürülüb. Yalnız 1918-ci ilin sentyabrında Türkiyədə təşkil olunmuş Qafqaz İslam Ordusunun köməyi ilə - Bakı daşnak-rus qüvvələrdən təmizləndikdən sonra milli hökumət Gəncədən Bakıya köçürülüb.

Müstəqil Azərbaycan Cümhuriyyəti qısa ömründə böyük nailiyyətlər və qalibiyyətlər əldə edib. Şərqdə ilk dəfə məhz Azərbaycanda qadınlara dövlət orqanlarına seçilmək və seçmək hüququ verilib. Qadın-kişi bərabərliyi qanunla təsbit olunub. Azərbaycan Xalq Cümhuriyyəti dövlət müstəqilliyinin əsas atributu və qarantı olan milli ordunu yaradıb. Milli pul vahidi tədavülə buraxılıb, milli bank fəaliyyətə başlayıb. Dövlət və özünü idarəetmə orqanlarına seçkilərin keçirilməsi qanun halına salınıb. Azərbaycanın beynəlxalq əlaqələrini gücləndirmək üçün təxirəsalınmaz tədbirlər görülüb. İqtisadiyyatda böyük islahatlar başlanılıb.




Azərbaycan Demokratik Cümhuriyyətini rəsmi surətdə tanıyan ilk dövlət Osmanlı Türkiyəsi olub.

O zamana qədər qırmızı rəngdə olan Azərbaycan Demokratik Cümhuriyyəti bayrağının əvəzinə 1918-ci ilin 9 noyabr tarixində yeni, üç rəngli dövlət bayrağı təsis edilib.

Təəssüflər olsun ki, gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə cəmi 23 ay fəaliyyət göstərən müstəqil Azərbaycan Cümhuriyyəti iki yaşına çatmadan bolşeviklərin hücumuna məruz qaldı, daxili və xarici təzyiqlər nəticəsində müvəqqəti olaraq devrildi. Sovetlər Birliyi Azərbaycanı məcburi surətdə öz tərkibinə daxil etdi.

Lakin xalqımızın istiqlal ideyası yenilmədi və 1991-ci ildə Sovet İmperiyasının dağılması ilə Azərbaycan yenidən öz müstəqilliyini bərpa etdi.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında yeni tarixi şəraitdə Xalq Cümhuriyyətinin ənənələri əsasında müstəqil Azərbaycan dövləti yaradıldı. Ulu öndər tərəfindən bu dövlətin müstəqilliyinin, suverenliyinin qorunması üçün qətiyyətli tədbirlər görüldü, ölkədə davamlı ictimai-siyasi sabitlik bərpa edildi.

Bu gün Prezident İlham Əliyev tərəfindən Azərbaycan Respublikasında demokratik, hüquqi, dünyəvi dövlət, vətəndaş cəmiyyəti quruculuğu prosesi uğurla davam etdirilir. Respublikamızda uğurlu siyasi, iqtisadi və sosial islahatlar həyata keçirilir, ölkə iqtisadiyyatı dönmədən inkişaf edir, əhalinin sosial müdafiəsinin gücləndirilməsi üçün təsirli tədbirlər görülür.

**“Qəbələ”**

# Məşğulluq strategiyanın hədəfləri müzakirə edilib

Rayon məşğulluq mərkəzi tərəfindən təsdiq olunmuş qrafikə uyğun olaraq mayın 1-də Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində idarə, müəssisə və təşkilatların nümayəndələrinin iştirakı ilə “Azərbaycan Respublikasında müasir mərhələdə dövlət məşğulluq siyasətinin gücləndirilməsi, bu sahədə mövcud problemlərin həlli və əhalinin səmərəli məşğulluğunun təmin edilməsi” mövzusunda dəyirmi masa keçirilib.



Tədbirdə məşğulluq mərkəzinin direktoru Çingiz Əliyev, rayon icra hakimiyyəti aparatının nümayəndəsi Ramil Qəribov və 30-dan artıq işəgötürən nümayəndəsi iştirak edib.

Tədbiri giriş sözü ilə açan Çingiz Əliyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev əhalinin sosial müdafiəsinin yaxşılaşdırılması istiqamətində verdiyi son fərman və sərəncamlar, “İşsizlikdən sığorta haqqında” və “Məşğulluq haqqında” Azərbaycan Respublikası Qanunları,Azərbaycan Respublikası Prezidentinin 30 oktyabr 2018-ci il tarixli Sərəncamı ilə təsdiq olunmuş “2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası” və bu sahədə qəbul edilmiş digər qanunvericilik aktları barədə məlumat verib.

Tədbirdə məşğulluq strategiyanın həyata keçirilməsi ilə bağlı nəzərdə tutulmuş hədəflər müzakirə edilib, işəgötürənlərə məşğulluq alt sisteminə vakansiyaların daxil edilməsi prosesi əyani qaydada izah olunub.

**Həsrət AĞAMOĞLANOV,**
**mərkəzin əməkdaşı.**
**Səhrab Umuyev (foto).**

# Geniş məlumatlar əldə etmişlər

18 may Beynəlxalq Muzeylər Günü münasibətilə rayonun ümumtəhsil məktəblərinin Heydər Əliyev Mərkəzinə ekskursiyaları təşkil olunmuşdur. Mərkəzlə tanış olan məktəblilər burada ulu öndər Heydər Əliyevin zəngin irsini, keçdiyi şərəfli ömür yolunu əks etdirən stendlərə baxmış, ətraflı məlumatlar əldə etmişlər.

Mərkəzin əməkdaşı Sədaqət Kazımova seyirçilərə muzeylərin cəmiyyətin həyatında rolundan danışmış və bununla əlaqədar hər il may ayının 18-inin Beynəlxalq Muzeylər Günü kimi qeyd edildiyini diqqətə çatdırmışdır.

Bildirmişdir ki, ulu öndər Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə daim mədəniyyətin qayğısına qalmışdır. Ümummilli lider tərəfindən muzey işinin inkişafı üzrə müəyyən edilmiş prioritetlər bu gün Prezidenti İlham Əliyev və ölkəmizin birinci xanımı, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın rəhbərliyi ilə fəaliyyət göstərən Heydər Əliyev Fondu tərəfindən uğurla davam etdirilir.

**“Qəbələ”**

# Qəbələ rayonun demoqrafik vəziyyəti haqqında MƏLUMAT

2019-cu ilin yanvar ayının 1-i vəziyyətinə Qəbələ rayonunda əhalinin sayı 1124 nəfər və yaxud 11,2 faiz artaraq 106644 nəfərə çatmışdır. Hazırda rayon əhalisinin sıxlığı bir kvadrat kilometrdə 69 nəfərdir. Əhalinin 36205 nəfəri şəhər və qəsəbələrdə, 70439 nəfəri isə kəndlərdə yaşayır.

Əhalinin 54286 nəfərini kişilər, 52358 nəfərini isə qadınlar təşkil edir.

Əhalinin 24,7 faizi 14 yaşadək, 69,8 faizi 15-64 yaşda, 5,5 faizi isə 65 və yuxarı yaşda olanlardır. 14-29 yaşda olan gənclər rayon əhalisinin 30,2 faizini təşkil edir.

Rayonda orta yaş 30,6, yeni doğulan körpələr üçün gözlənilən ömür uzunluğu 75,3 yaş, o cümlədən kişilər üçün 73,6 yaş, qadınlar üçün 77,1 yaşdır.

2019-cu ilin yanvarın 1-i vəziyyətinə rayonda 1716 nəfər, gündə təxminən 4,7 körpə doğulmuşdur ki, onların da 873 nəfərini və yaxud 50,9 faizini oğlanlar, 843 nəfəri və yaxud 49,1 faizini qızlar təşkil edir. 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə hər 1000 nəfər hesabı ilə doğulanların sayı 17,5-dən 16.1-ə qədər azalmışdır. Doğulanların 4,6 faizi rəsmi nikahdan kənar doğulmuşdur ki, onlar da 16-29 yaşadək qadınlar tərəfindən dünyaya gətirilmişdir.

Rayonda orta hesabla bir qadına 2,6 doğulmuş uşaq düşür.

2019-cu ilin yanvarın 1-i vəziyyətinə rayonda 545 ölüm, o cümlədən 1 yaşa qədər 29 uşaq ölümü, 792 nikah və 112 boşanma qeydə alınmışdır. 2018-ci ilin müvafiq dövrünə nisbətən əhalinin hər 1000 nəfər hesabı ilə ölənlərin sayı 5,8-dən 5,1-ə qədər azalmış, nikahların sayı 7,1-dən 7,4 qədər artmış, boşananların sayı isə 0,9-dən 1,0-a qədər artmışdır.

2019-cu ilin yanvarın 1-i vəziyyətinə hamiləlik, doğuş və doğuşdan sonrakı dövrlərdə ana ölümü halı qeydə alınmamışdır.

Birinci nikaha daxil olanların orta yaş həddi kişilər arasında 27, qadınlar arasında isə 24 yaş təşkil edir.

2019-cu il yanvar ayının 1-i vəziyyətinə Daxili İşlər Nazirliyinin müvafiq qurumları tərəfindən daimi yaşamaq üçün Qəbələ rayonuna 61 nəfərin gəldiyi və 108 nəfərin rayondan getdiyi qeydə alınmışdır.

**Ayaz İSGƏNDƏROV,**
**rayon statistika idarəsinin rəisi.**